I Türkoloji Qurultay və türk dillərindəki ləhcə problemi

Könül Səmədova
Filologiya elmləri doktoru, professor
ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri
samedovakonul74@mail.ru
https://orcid.org/0000-0003-4061-9775

Xülasə: XX əsrin əvvəlləri türkoloji elmin inkişafında mühüm mərhələlərdən biri kimi qiymətləndirilir. Bu dövrdə türk xalqlarının dili, tarixi və mədəniyyəti ilə bağlı aparılan araşdırmalar yalnız elmi çevrələrdə deyil, həm də milli özünüdərkin formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Türk dillərinin tədqiqinə dair ilk fundamental yanaşmaların formalaşdığı, müqayisəli-tarixi metodun sistemləşdiyi məhz bu illərdə keçirilən beynəlxalq elmi toplantılar sırasında I Türkoloji Qurultay mühüm yer tutur. Qurultay müxtəlif türk xalqlarının nümayəndələrini, görkəmli dilçi alimləri və maarifçiləri bir araya gətirərək türk dillərinin ləhcə müxtəlifliyi, ortaq xüsusiyyətləri və tarixi inkişaf istiqamətləri kimi aktual məsələləri müzakirə müstəvisinə çıxarmışdır.

Açar sözlər: türk dilləri, dialektologiya, türkologiya, dil tarixi, ləhcələr

Giriş. Qurultayın gündəliyində əsas müzakirə mövzularından biri türk dillərində ləhcə məsələsi olmuşdur. Məsələ yalnız dilçilik aspektindən deyil, həm də tarixi-coğrafi, etnoqrafik və mədəni kontekstdə araşdırılmış, müxtəlif yanaşmaların elmi debat şəklində qarşılaşdırılması müşahidə edilmişdir. Bu baxımdan qurultayda çıxış edən görkəmli alimlərdən biri, Bəkir Çobanzadənin təqdim etdiyi məruzə həm metodoloji, həm də faktoloji material baxımından xüsusilə diqqətəlayiqdir. Çobanzadə türk dillərində ləhcə bölgüsünün tarixi köklərinə nəzər salaraq Orxon-Yenisey yazılarından başlayaraq Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinə qədərki mənbələri müqayisəli şəkildə təhlil etmiş, həmçinin Radlov, Samoyloviç və digər tanınmış türkoloqların təsnifatlarına tənqidi yanaşmışdır.

Qurultayın keçirildiyi dövrdə türk dillərinin ləhcə bölgüsünə dair vahid elmi təsnifat mövcud deyildi. Əldə olan materialların məhdudluğu, tarixi mənbələrin natamamlığı və tədqiqat metodlarının yeni formalaşması bu sahədə yekdil qənaətə gəlməyə imkan vermirdi. Buna baxmayaraq, I Türkoloji Qurultayda aparılan müzakirələr sonrakı onilliklərdə türk dillərinin müqayisəli qrammatikası və dialektologiyasının inkişafı üçün nəzəri baza yaratmışdır. Bu problem yalnız filoloji baxımdan deyil, həm də etnoqrafik və tarixi aspektlərdə türk xalqlarının ümumi mənşəyi və dil inkişafı barədə fundamental nəticələr çıxarmağa imkan verirdi. Qurultayda çıxış edən Bəkir Çobanzadə türk ləhcələrinin əmələgəlmə səbəblərinə dair nəzəri və tarixi yanaşmaları sistemli şəkildə təqdim etmiş, bu sahədə mövcud tədqiqatların çatışmazlıqlarını göstərmişdir.

Çobanzadənin fikirlərinə görə, türk dillərində ləhcələrin təşəkkülü məsələsi qədim dövrlərə, xüsusən də Orxon-Yenisey yazılı abidələrindən əvvəlki mərhələyə gedib çıxır. O, qeyd edirdi ki, türk tayfalarının adı çəkilən yazılarda artıq fərqli dialekt qruplarına malik olması, həmçinin şərq və qərb, şimal və cənub kimi bölgülərin mövcudluğu həmin dövrün dil mənzərəsini təsdiq edir (1, 101; 3). Əsərlərdən əldə olunan məlumatlar göstərir ki, türk tayfaları özlərini "türk" adı ilə adlandırır, bu isə dil və etnik identiklik məsələsinin qədimdən formalaşdığını sübut edir.

Məruzədə diqqətə çatdırılan mühüm tezislərdən biri də budur ki, türk ləhcələrinin tədqiqi yalnız yazılı mənbələrlə məhdudlaşmamalıdır. Çobanzadə "Kutadqu Bilig", "Divani-hikmət", "Divani-lüğət-it-türk" kimi əsərlərin müxtəlif ləhcələrdə yazıldığını vurğulayaraq, bu mətnlərin dil tarixi baxımından müqayisəli öyrənilməsinin zəruriliyini ön plana çəkmişdir. O, XIII əsrə qədərki dövrə aid mənbələrin azlığını xüsusi qeyd etmiş, bu səbəbdən ləhcələrin inkişaf xəttinin izlənməsində boşluqların mövcud olduğunu bildirmişdir.

Qurultay müzakirələrində ləhcə məsələsinin yalnız fonetik xüsusiyyətlər əsasında təsnif edilməsinin kifayət etmədiyi vurğulanmışdır. Çobanzadə və digər alimlər ləhcələrin tarixi, sosial

və mədəni amillərlə əlaqədə öyrənilməsinin vacibliyini önə çəkmişlər. Bu yanaşma türkoloji elmdə metodoloji dönüş nöqtəsi hesab oluna bilər. Çünki əvvəlki təsnifatlar əsasən səslənmə xüsusiyyətlərinə söykənir, tarixi-mədəni faktorlara lazımi qədər diqqət yetirmirdi (6).

Fonetik meyarlardan kənara çıxaraq ləhcələrin tarixi və sosial kontekstlərlə birlikdə öyrənilməsi zərurəti türkoloji araşdırmalarda yeni istiqamətlərin yaranmasına təkan vermişdir. Bu metodoloji baxış yalnız nəzəri çərçivə ilə məhdudlaşmamış, eyni zamanda konkret regionların etnoqrafik və dil materiallarının tədqiqinə də tətbiq olunmuşdur. Bu yanaşmanın parlaq nümunələrindən biri kimi Y.Messaroşun fikirləri göstərilə bilər. *"Anadolunun etnoqrafik mənzərəsinin tədqiqində Y.Messaroş dil-dialekt materialının, xüsusilə türkləşmiş aborigenlərin türkcəsində "aradan çıxmış" dillərin fonetik qalıqlarının araşdırılmasının əhəmiyyətinə diqqəti çəkmişdir"* (4).

Türk ləhcələrinin tarixi inkişafını öyrənərkən Orxon-Yenisey yazılı abidələri də xüsusi əhəmiyyət kəsb edir. I Türkoloji Qurultayda Bəkir Çobanzadə bu yazıların təkcə tarixi mənbə kimi deyil, həm də erkən türk dialektlərinin təsnifində əsas göstərici rolunu oynadığını vurğulamışdır. Çobanzadəyə görə, Orxon abidələri artıq həmin dövrdə türk dillərinin müəyyən ləhcə qruplarına, şərq və qərb, yaxud şimal və cənub qruplarına bölündüyünü nümayiş etdirir. Abidələrdə qeyd olunan karluk, uyğur, tokuz-oğuz və qırğız tayfalarının adları bu təsnifin tarixi reallığını təsdiqləyən fakt kimi dəyərləndirilir (1, 101; 3).

Bu yazıların mühüm tərəflərindən biri də onlarda "türk" etnoniminin istifadə olunmasıdır. Qurultay müzakirələrində bu fakt türk xalqlarının qədim dövrdən özlərini "türk" adı ilə identifikasiya etməsinin göstəricisi kimi qiymətləndirilmişdir. Bu məqam sonrakı mənbələr – "Kutadqu Bilig", "Divani-lüğət-it-türk", "Divani-hikmət" və digər əsərlərdə də təsdiqlənir; həmin mətnlərin müəllifləri əsərlərinin dilini "türk dili" adlandırmış, özlərini isə "türk" kimliyi ilə təqdim etmişlər. Bu da ləhcə müxtəlifliyinə baxmayaraq, ümumi türk dili şüurunun erkən mərhələdə formalaşdığını göstərir (8, s, 26).

Qurultayda diqqət çəkilən əsas tezislərdən biri də erkən türk ləhcələrinin müstəqil inkişaf xəttinə malik olmasıdır. Çobanzadə yazılı abidələrin fonetik, morfoloji və leksik xüsusiyyətlərini müqayisə etməklə Orxon, Uyğur, Çağatay və Özbək ləhcələrinin türk dilinin təkamülündə fərqli mərhələləri təmsil etdiyini göstərmişdir. Bununla yanaşı, o, həmin dövrdə mövcud tədqiqatların bu ləhcələrin qarşılıqlı əlaqələrini tam izah etmədiyini, metodoloji baxımdan yalnız səs xüsusiyyətlərinə söykənməyin kifayət etmədiyini vurğulamışdır. Çünki tarixi proseslər, tayfaların köçləri, siyasi ittifaqların yaranması və süqutu, mədəni təsirlər dialektlərin formalaşmasında fonetik göstəricilər qədər mühüm rol oynamışdır (2).

Orxon-Yenisey abidələrinin təqdim etdiyi faktlar göstərir ki, türk dillərinin dialekt coğrafiyası təkcə şərq-qərb xətti ilə deyil, həm də mərkəzi və periferiya bölgüsü ilə müəyyənləşdirilə bilər. Qurultay müzakirələrində səsləndirilən bu fikir sonrakı illərdə türkoloji araşdırmalarda qəbul edilmiş, xüsusilə Radlov və Samoyloviçin təsnifatlarında öz əksini tapmışdır. Lakin Çobanzadə bu təsnifatları tam qənaətbəxş hesab etməmiş, dialektlərin müqayisəli qrammatikasının hələlik tam formalaşmadığını bildirmişdir.

Türk dillərinin tarixi dialektologiyasının formalaşmasında Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri əvəzsiz mənbə kimi çıxış edir. I Türkoloji Qurultayda bu əsərin xüsusi çəkisi vurğulanaraq qeyd edilmişdir ki, XI əsrə aid olan bu lüğət türk tayfalarının dil xüsusiyyətlərini öyrənmək üçün yeganə sistemli mənbələrdən biridir. Çobanzadə çıxışında bu faktı təsdiqləyərək qeyd edirdi ki, "Divani-lüğət-it-türk" sayəsində həmin dövrün ləhcə mənzərəsi haqqında ilkin məlumat əldə etmək mümkündür və bu əsər türk dilçiliyində müqayisəli tədqiqatlar üçün əsas baza təşkil edir. *"Bəkir Çobanzadə M.Kaşğarlının "Divan"ına istinadən verdiyi "Türk ləhcələrində leksikanın bünövrəsi vahiddir. Orada fərqlər yoxdur. Əgər varsa da, yalnız müxtəlif hərflərdə (səslərdə) və onların dəyişməsindədir" fikri ilə açıq şəkildə bildirir ki, ümumtürk ədəbi dilinin yaradılması üçün əlimizdəki bu fakt sözügedən ideyanın reallaşması yönündə ən önəmli amildir"* (11, s. 22).

Kaşğarinin tədqiqatı yalnız leksik məlumat vermir, həm də fonetik və morfoloji göstəricilər əsasında müxtəlif türk tayfalarının ləhcə fərqlərini müəyyənləşdirir. Bu xüsusiyyət onu sonrakı əsrlərdə aparılmış araşdırmalar üçün metodoloji başlanğıc nöqtəsinə çevirir. Qurultayda Çobanzadə xüsusi olaraq vurğulayırdı ki, Mahmud Kaşğarinin verdiyi məlumatlar tarixi dövrlərin sosial-siyasi hadisələri ilə müqayisədə nəzərdən keçirilməlidir; çünki tayfaların köçləri, siyasi ittifaqlar və iqtisadi əlaqələr dialekt bölgülərinin formalaşmasına birbaşa təsir etmişdir (2).

Sonrakı əsrlərdə türk ləhcələrinin öyrənilməsi ilə məşğul olan Radlov, Samoyloviç, Bötlingk, Tomsen və digər alimlər Kaşğarinin əsərindəki təsnifat prinsiplərindən müəyyən mənada bəhrələnmiş, lakin eyni zamanda öz dövrlərinin yeni metodologiyasını tətbiq etmişlər. Qurultay müzakirələrində bu alimlərin xidmətlərini yüksək qiymətləndirilsə də, onların təsnifatlarının məhdudluğu da qeyd edilmişdir. Xüsusilə vurğulanırdı ki, əvvəlki tədqiqatlarda dialektlər arasında qohumluq müəyyənləşdirilərkən əsasən səs dəyişmələrinə diqqət yetirilmiş, lakin tarixi və etnoqrafik faktorlar kifayət qədər nəzərə alınmamışdır.

Samoyloviçin təsnifatı həmin dövrdə ən müasir yanaşmalardan biri hesab olunsa da, Qurultayda bildirilmişdi ki, bu təsnifat belə bütün türk ləhcələrinin qarşılıqlı münasibətlərini tam izah etmir (1,104; 3). Çobanzadə qeyd edirdi ki, mərkəzi ləhcələr, xüsusilə Özbək və Şərqi Türküstan qrupları türk dillərinin qohumluq əlaqələrinin öyrənilməsində xüsusi rol oynayır və onların həm şimal-cənub, həm də şərq-qərb qrupları ilə əlaqəsi nəzərə alınmalıdır.

Bu mülahizələrdən aydın olur ki, I Türkoloji Qurultay yalnız mövcud materialların şərhi ilə kifayətlənməmiş, həm də gələcək tədqiqat istiqamətləri üçün nəzəri yol xəritəsi müəyyənləşdirmişdir. Kaşğaridən Radlov və Samoyloviçə qədərki inkişaf xətti türkoloji elmdə müqayisəli dialektologiyanın əsasını təşkil etmiş, bu sahədə metodoloji dönüş yaratmışdır (13).

I Türkoloji Qurultay yalnız faktların təqdimatı ilə məhdudlaşmamış, həm də türk dillərinin dialektologiyası sahəsində mövcud elmi nəzəriyyələrin tənqid və müzakirə müstəvisinə çıxarılması ilə seçilmişdir. Çobanzadənin çıxışında səsləndirdiyi fikirlər, xüsusilə əvvəlki təsnifatların metodoloji qüsurları və məhdudluqları barədə söylədiyi iradlar bu müzakirələrin mərkəzində dayanmışdır.

Çobanzadə və digər alimlər diqqətə çatdırırdılar ki, türk ləhcələrinin təsnifində çox vaxt yalnız fonetik göstəricilər nəzərə alınır, halbuki tarixi, sosial və mədəni amillər, tayfaların köçləri, siyasi dəyişikliklər və iqtisadi münasibətlər kimi faktorlar dialektlərin formalaşmasına birbaşa təsir göstərmişdir. Bu baxımdan, yalnız səs uyğunluqlarına əsaslanan təsnifatların natamam olduğu vurğulanmışdır.

Radlov və Samoyloviç kimi alimlərin təsnifatları Qurultayda yüksək qiymətləndirilsə də, bu təsnifatların bütün türk dialektlərini əhatə etmədiyi və bəzi hallarda qarışıq meyarlara söykəndiyi bildirildi. Məsələn, bəzi təsnifatlarda fonetik xüsusiyyətlər üstünlük təşkil edirdi, digər hallarda isə tarixi məlumatlar nəzərə alınmırdı. Bu ziddiyyətlərin elmi konsensus yaratmağı çətinləşdirdiyi və türk dillərinin müqayisəli qrammatikasının hələlik tam formalaşmadığı qeyd edilirdi(12).

Krım, Orta Asiya və Volqaboyu kimi regionlarda bir kənd və ya rayon daxilində belə müxtəlif dialektlərin izlərinin müşahidə olunması faktı diqqətə çatdırılmışdır. Bu, türk tayfalarının tarixi miqrasiyalarının nəticəsi kimi izah olunur və dialektlərin tədqiqində yalnız coğrafi bölgünün yetərli olmadığını göstərir.

Qurultayda elmi debatların nəticəsi olaraq belə qənaət formalaşmışdır ki, türk dialektologiyası üzrə gələcək araşdırmalar kompleks yanaşma tələb edir. Bu yanaşma tarixi mənbələrin genişləndirilməsi, etnoqrafik materialların toplanması, fonetik və morfoloji göstəricilərin müqayisəli təhlili ilə birləşdirilməlidir. Çobanzadənin də vurğuladığı kimi, belə bir yanaşma həm türk dillərinin daxili qohumluq əlaqələrini müəyyənləşdirəcək, həm də Ural-Altay nəzəriyyəsi kimi geniş konsepsiyaların daha dəqiq qiymətləndirilməsinə imkan verəcəkdir (1,106; 3).

I Türkoloji Qurultay türkoloji elmin inkişaf tarixində mühüm mərhələ kimi çıxış etmiş, türk dillərinin ləhcə müxtəlifliyi və onların tarixi inkişaf xətti məsələlərini ilk dəfə beynəlxalq

miqyasda müzakirə obyektinə çevirmişdir. Qurultay materialları göstərir ki, həmin dövrdə türk dillərinin dialektologiyası hələ tam sistemləşməmişdi; mövcud təsnifatlar, əsasən, fonetik xüsusiyyətlərə söykənir, tarixi və etnoqrafik amilləri yetərincə nəzərə almırdı. Buna baxmayaraq, qurultayda aparılan müzakirələr gələcək tədqiqatlar üçün metodoloji baza yaratmış və yeni elmi istiqamətlərin formalaşmasına təkan vermişdir.

Bəkir Çobanzadə türk dillərinin tarixi ləhcə bölgüsünə dair dərin təhlil aparmış, Orxon-Yenisey yazılarından başlayaraq Mahmud Kaşqarinin "Divani-lüğət-it-türk" əsərinə qədərki mənbələri müqayisəli şəkildə qiymətləndirmişdir. O, həm Radlov, Samoyloviç və digər görkəmli türkoloqların təsnifatlarının xidmətlərini tanımış, həm də onların metodoloji məhdudiyyətlərini göstərərək dialekt tədqiqatlarının yalnız səs uyğunluqlarına əsaslanmasının kifayət etmədiyini vurğulamışdır. Çobanzadənin təklif etdiyi yanaşma tarixi, sosial və mədəni faktorları nəzərə alan kompleks tədqiqat modeli müasir türkoloji araşdırmalar üçün də aktual olaraq qalmaqdadır.

Aparılan müzakirələrin hər biri sonda müəyyən qətnamələrin qəbul olunması ilə yekunlaşırdı. Məsələn, *"müqayisəli türkoloji dilçilik ilə bağlı qəbul olunan qətnamədə ayrı-ayrı türk dillərinin, dialekt və şivələrinin dərindən, hərtərəfli öyrənmək, toplanmış dil materiallarını çap etmək, ayrı-ayrı elmi qrammatikaların və lüğətlərin tərtib olunmasını təşkil etmək, müqayisəli-tarixi qrammatika kitablarının yazılması, müqayisəli etimoloji lüğətlərin hazırlanması, türk dillərinin və dialektlərinin təsnifi ilə əlaqəli işlərin görülməsinə diqqətin artırılması nəzərdə tutulurdu"* (10, s. 32)

Nəticə. Belə qənaət hasil olur ki, I Türkoloji Qurultay yalnız elmi müzakirə meydanı deyil, həm də türk dillərinin müqayisəli qrammatikasının gələcəkdə hazırlanması üçün nəzəri yol xəritəsi rolunu oynamışdır. Qurultayda səsləndirilən ideyalar bu gün də türkoloji elmdə dialektologiya, tarixi qrammatika və etnolinqvistika sahələrində aparılan araşdırmaların əsas konseptual dayaqlarından biri kimi dəyərləndirilir. Bu müzakirələr nəticəsində türk dillərinin təsnifatında vahid elmi meyarların müəyyənləşdirilməsi və qarşılıqlı müqayisə metodlarının inkişafı üçün zəmin yaranmışdır. Bundan əlavə, Qurultayın ideya irsi sonrakı onilliklərdə türk xalqlarının dil tarixinin, etnik kimliyinin və mədəni inteqrasiyasının araşdırılmasına metodoloji istiqamət vermişdir.

Ədəbiyyat

1. 1926-cı il I Bakı Türkoloji Qurultayının stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. Tərtib edənlər: Nərimanoğlu K.V., Ağakişiyev Ə. Bakı, "Çinar-çap", 2006.
2. Babayev A. (1998) Bəkir Çobanzadənin yeni Azərbaycan əlifbası və orfoqrafiyası uğrunda mübarizəsi, Bakı.
3. Birinci Türkoloji Qurultayının Stenoqram hesabatı, (1926) 26 fevral-5 mart.
4. Bünyadov Z. (1993) Qırmızı terror, Bakı.
5. Cəfərov N., Hüseynova M., Qəribli A. Birinci Türkoloji Qurultayda etnoqrafiya məsələləri. https://edebiyyatqazeti.az/news/sience/13215-birinci-turkoloji-qurultayda-etnoqrafiya-meseleleri
6. Eyvazov P. I (2016) Bakı Türkoloji Qurultayında Bəkir Çobanzadə türk dillərinin leksik quruluşu haqqında. Müasir Türkologiya: Dünən, bugün və sabah. Respublika elmi konfransının materialları, Bakı, "Elm və təhsil",.
7. Fərəh A. (2006) Birinci Türkoloji Qurultay haqqında düşüncələr, Ədəbiyyat qəzeti, Bakı.
8. Hacıyev T. (2012) Azərbaycan ədəbi dili tarixi II hissə, Bakı, Elm, 389 s.
9. Hacıyev T. (2006) Birinci Türkoloji Qurultayda dil məsələləri / BDU-nun "Bakı Universiteti Xəbərləri" elmi jurnalı. Bakı, № 2, s. 18-26.
10. Həbibbəyli İ. (2016) Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 7-12.
11. İbrahimov E. (2017) Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili, Bakı:Mütərcim.

12. Məmmədova E. Birinci türkoloji qurultay və dil məsələləri. Elmi iş. Humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal. №10, 2019/49
13. Tahirov İ. (2016) I Türkoloji Qurultay və müqayisəli dilçilik məsələləri. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 72-75